**UOT 94 (479.24)**

# II DÜNYA MÜHARİBƏSİNDƏN SONRAKI İLLƏRDƏ AZƏRBAYCANDA SƏNƏDLİ FİLMLƏRİN ÇƏKİLİŞİNƏ DÖVLƏT VƏ PARTİYA YARDIMI TARİXİNDƏN

**İ.B.MƏHƏRRƏMOV**
***Azərbaycan Texniki Universiteti***
***israil@mail.ru***

*Məqalədə II Dünya müharibəsindən sonrakı dinc quruculuq illərində Azərbaycan operatorları və rejissorları tərəfindən Bakıda və respublikanın bölgələrində əmək qəhrəmanlarının fəaliyyətləri haqqında səhnələri əks etdirən sənədli və xronikal filmlərin çəkilişi sahəsində Bakı kinostudiyasının fəaliyyətindən bəhs edilir. Sovet hakimiyyəti və partiya rəhbərliyi çəkilmiş həmin lentlərdən əsasən təbliğat məqsədilə istifadə edilmişdir.*

**Açar sözlər:** Bakı kinostudiyası, sənədli film, sənədli kino, xronikal film, kinojurnal, kinopublisistika, kinonovella, kinoxronika, sənədli-xronikal lent və s.

II Dünya Müharibəsindən sonrakı illərdə kinolaşdırma sahəsindəki işlər xeyli artırdı. Dövlət və partiyanın sifarişi və himayədarlığı ilə sənədli və xronikal filmlərin çəkilişi də genişləndirildi. Buraya yeni quruculuq işləri, sənayenin, kənd təsərrüfatının inkişafı, neft hasilatı, mədəni quruculuq və s. sahələrlə bağlı filmlər çəkilirdi.

Bu mövzunun tədqiqində məqsəd Azərbaycan kino sənətçilərinin şərəfli işlərinin kəşməkəşli məqamlarından, onların çətin şəraitlərdə heç nədən qorxmadan qarşılarına qoyduqları məqsədə ürəklə can atdıqlarından, dövlət orqanları ilə çulğaşmış və faktiki olaraq dövlətin rəhbər orqanına – üstqurumuna çevrilmiş o vaxtkı Kommunist partiyasının, eləcə dövlət və hökumət orqanlarının sənədli və xronikal filmlərin çəkilişinə himayədarlıqları və yardımlarından söz açmaqdır.

Tədqiqata cəlb etdiyimiz mövzu çəkilən filmlərin təhlilinə həsr olunmuş bir sıra əsərlərdə – sənətşünaslıq namizədi Məsumə Rzayevanın «Azərbaycanın sənədli kinosu (1920-1965)» [1], «Partiya və Azərbaycan kinopublisistlərinin yaradıcılıq axtarışları (1966-1975)» [2] monoqrafiyalarında, «Azərbaycan sənədli kinosunun bəzi məsələləri» [3, 104] məqaləsində, tanınmış kinoşünas alim, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dosenti Aydın Kazımzadənin «Bizim "Azərbaycanfilm"» (2004) [5], «Xronikal-

sənədli, elmi-kütləvi, sifariş və tədris filmlərinin izahlı kataloqu» [6] kitablarında, Göyçək Mahmudovanın «Azərbaycanın sənədli kinosu» [7] məqaləsində məlumat verilmişdir. Sənədli və xronikal filmlərin çəkilişini istiqamətləndirən və maliyyələşdirən partiya və dövlət orqanlarının fəaliyyəti isə təqdim olunan məqalədə nəzərdən keçirilir.

Təbii ki, çəkilən filmlər bir qayda olaraq təbliğat xarakterli olmalı idi. Bu, həm sənədli, sənədli-xronikal, həm də bədii filmlərə aid idi, necə deyərlər, hər şey pulu verən sifarişçinin könlüncə olmalı idi.

II Dünya müharibəsindən sonrakı illərdə də sənədli və xronikal filmlərin çəkilişinə təkcə dövlət və partiya orqanları tərəfindən, həm də mütəxəssislər və bütövlükdə ziyalılar tərəfindən xüsusi fikir verilirdi. Çəkilən filmlər bütün sahələrdə ən ağır məqamları belə sovet və Kommunist Partiyasının rəhbərliyi altında qazanılmış mühüm nailiyyətlər kimi təqdim etməli idi. Filmlər bir qayda olaraq ideologiya üzərində qurulmalı və partiyanın qarşıya qoyduğu müharibədən sonrakı pafoslu tələblərə cavab verməli idi.

O dövrün həyatını əks etdirən kinojurnallar Bakı Kinostudiyasının xronika şöbəsində çəkilirdi. Amma çəkilən filmlərdə dövrün çatışmazlıqları təmtəraqlı, bərbəzəkli görüntülərlə pərdə arxasına atılırdı.

Müharibədən sonrakı illərdə orta hesabla hər ayda 3 jurnal çəkilirdi [1, 84]. Kinojurnallarda adətən müxtəlif sayda – 4-5 sayda süjet olurdu, sonralar bu süjetlərin sayı 6-7-ə çatdırıldı. Bu süjetlərdə əmək qabaqcıllarının portretləri, qabaqcıllara ordenlərin verilməsi, rayonlarda iş proseslərinin gedişi işıqlandırılırdı. Portret janrında bir qayda olaraq "beşilliyin qabaqcılları" silsiləsindən filmlər çəkilirdi. Məsələn, 1947-ci ildə çəkilmiş bir lentdə tanınmış pambıqçı Şamama Həsənova, qazma ustası Məcid Rəsulov, tanınmış dispetçer Ağasəf Bağırov və başqaları haqqında söhbət açılırdı.

Bütövlükdə, 1946-1952-ci illərdə 1000-dən artıq süjeti əhatə edən 278 kinojurnal çəkilmişdi [1, 85].

Azərbaycan LKGİ MK-nın dəstəyi və zəmanəti ilə Bakı Kinostudiyası əməkdaşlarının təşəbbüsü ilə 1951-ci ildən uşaqlar və gənclər üçün "Gənc nəsil" adlı yeni kinojurnalın çəkilişinə başlanıldı. 1951-1952-ci illərdə 8 belə lent işıq üzü görmüşdü.

"Ordenli Azərbaycan", "Gənc nəsil" kinojurnallarının çəkilişində rejissorlardan M.Mikayılov, A.R.Quliyev, N.Bədəlov, M.Dadaşov, Z.Kazımova, L.Səfərov, operatorlar A.Nərimanbəyov, T.Axundov, X.Babayev və b. yaxından iştirak edirdilər.

Çəkilən bütün lentlər bir qayda olaraq Moskvaya göndərilir və orada ciddi senzuradan keçirilirdi. Bundan əlavə, ikinci qeyri-rəsmi senzura da fəaliyyət göstərirdi: bu, Bakı Kinostudiyası nəzdində yaradılmış Bədii Şura idi. Müharibədən sonrakı illərdə Bakı Kinostudiyasının bədii rəhbəri Moskvadan gətirilmiş Y.Dziqan təyin olunmuşdu. Təkcə bu faktın özü Moskva tərəfindən Azərbaycan kinosuna necə nəzarət edildiyini söyləmək üçün kifayətdir.

Bədii Şurada çəkilən lentlərə dəfələrlə baxış keçirilir, ixtisarlar edilir və

bununla da müəlliflərin yaradıcılıq imkanları məhdudlaşdırılırdı.

Məsələn, İ.Qasımovun ssenarisi ilə "Bakının işıqları" lenti çəkilərkən Bədii Şura bir neçə dəfə onu müzakirə etdi, yersiz iradlar və dırnaqarası tövsiyələr verildi. Rejissor R.Təhmasib bütün bunlara öz qəti etirazını bildirdi. Amma Bədii Şuranın tələbi ilə ssenari yenidən, özü də moskvalı müəllif tərəfindən yazıldı. Üstəlik R.Təhmasiblə bərabər (bəlkə də ona nəzarət üçün) iki moskvalı rejissor da filmin çəkilişinə cəlb olundu, amma çəkilmiş film M.C.Bağırovın baxışından sonra qadağan edilmişdi [5, 114-117].

XX əsrin 50-ci illərində 80-ə yaxın bədii-sənədli, xronikal-sənədli və elmi-kütləvi film istehsal olunmuşdu. Bunların arasında "Gədəbəyin sərvəti" (rej. L.Səfərov), "Mingəçevir" (rej. A.Quliyev), "Bərəkətli torpaq" (rej. L.Səfərov), "Bakı və bakılılar" (rej. L.Səfərov), "Məhəmməd Füzuli" (rej. N.Bədəlov), "Bizim Azərbaycan" (rej. M.Dadaşov) və s. filmlər Bakı Kinostudiyasında istehsal olunmuşdu [5, 130].

Bütövlükdə 1953-1965-ci illərdə Bakı Kinostudiyasında 2500 süjetdən ibarət 520 kinojurnal çəkilmişdir [1, 98].

Bu dövrdə lentə alınan xronikal sənədli kinojurnallar artıq konkret sahələr üzrə müəyyənləşdirilir.

Diqqəti cəlb edən mühüm məsələlərdən biri də nisbətən son dövrlərdə partiya və dövlət orqanlarının sənədli filmlərin çəkilişindəki mövqelərində dönüşün yaranması idi. Əgər əvvəllər "sovet realizmində mənfi obraz olmamalıdır" deyərək müəlliflər qarşısında ağılsız tələblər irəli sürülürdü və onlara xalq düşməni kimi müxtəlif damğalar vurulurdusa, artıq XX əsrin 60-cı illərinin ortalarında mülayimləşmə nəzərə çarpır, hətta 1969-cu ildə kinematoqrafçıların qurultayında onların qarşısında tənqid xarakterli satirik filmlərin çəkilişi məsələsi qoyulur. Bununla belə, yenə də sənədli film çəkənlərdən növbəti beşilliklərin nailiyyətlərinin pafosla işıqlandırılması tələb olunurdu. İşıqlandırılan məsələlər sırasında ön cərgədə yenə də fəhlə və kolxozçular dururdu.

1971-ci ildə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasinin xronika şöbəsində yenidənqurma işləri aparıldı və bundan sonra xronikal-sənədli, elmi-kütləvi və sifarişli filmlərin çəkilişində Azərbaycan sənədli film çəkənləri bir sıra uğurlar əldə etdilər. Bununla da müxtəlif janrlarda sənədli filmlərin çəkilməsinə imkan yarandı.

1971-ci il oktyabrın 4-də Azərbaycan Mədəniyyət İşçiləri İttifaqının xüsusi olaraq sənədli filmlərin çəkilişinə həsr olunmuş plenumunda sənədli kino çəkənlərin nailiyyətləri qeyd olundu [2, 12]. Az müddət sonra – 19 aprel 1973-cü ildə respublika partiya fəalları yığıncağında "Azərbaycanfilm"in rəhbərləri özləri üçün "nəticə çıxarmadıqlarına görə" kəskin tənqid olundular [8].

Bu dövrdə sənədli filmlərin çəkilişində portret janrına üstünlük verilir: Fərman Salmanova həsr olunmuş "Tayqa qəhrəmanı", "Neftçi Qurban", "Fəhlə Qurban", "Dostluqla doğulanlar", "Muğan qızı", "Sürəyya" və s. filmlər bu qəbildəndir.

Kino-oçerklərin çəkilməsi də diqqət mərkəzində olmuşdur. Bu baxımdan "10 dəqiqə Bakı haqqında", "Sumqayıt", "Yeni dəniz mədəni", "Xalq istedad-

ları", "Çörək", "Azərbaycan, Azərbaycan", "Azərbaycan ağsaqqalları" və s. filmləri çəkilmişdir. O dövr üçün mühüm sayılan tarixi-inqilabi və bioqrafik filmlərin çəkilməsinə də xüsusi diqqət yetirilirdi. Bu qəbildən "Lenin və Azərbaycan", "Nəriman Nərimanov", "Cəlil Məmmədquluzadə", "Cəfər Cabbarlı", "Nəsimi", "aşıq Ələsgər" və s. filmlər çəkilmişdir.

XX əsrin 60-80-ci illərində "Ümumittifaq Kinematoqrafiya İnstitutunu bitirmiş yeni istedadlı gənclərin – R.Şahmalıyev, Z.Məhərrəmov, Y.Əfəndiyev, O.Mirqasımov, X.Muradov, F.Məmmədov, N.Bəkirzadə, T.Bəkirzadə, C.Zeynalov, M.Bağırov və başqalarının C.Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyasına gəlişi buraya yeni nəfəs gətirdi. Çəkilən "Azadlıq məşəli", "Bakıda bir gün", "Bizim Azərbaycan", "Niyazi" və s. filmlər həmin gənclərin sayəsində ərsəyə gəlmişdi [2, 121-182].

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, İttifaq səviyyəsində çəkilən filmlərə, xüsusilə də təbliğat vasitəsi kimi nəzərdə tutulan sənədli və xronikal filmlərin məzmunu və tamaşaçıya çatdırılması üsullarının, KP siyasəti nöqteyi-nəzərindən ideya-bədii keyfiyyətlərinin yüksəldilməsinə ciddi tələblər irəli sürülürdü. Bütün çətinliklərə baxmayaraq Bakı Kinostudiyası bu sahədə onun üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlmişdir. Vəsait ayrılmasında həmişə kəsirlə üzləşən Bakı Kinostudiyası plan üzrə çəkilişləri artıqlaması ilə yerinə yetirmişdi. Bakı Kinostudiyasının müharibəyə dair çəkdiyi çox qiymətli sənədli lentlərindən İttifaq səviyyəsində çəkilən bir sıra filmlərdə istifadə olunmuşdu və o lentlər bu gün də öz əhəmiyyətini itirməmişdir.

## ƏDƏBİYYAT


1. Рзаева М.З. Документальное кино в Азербайджане (1920-1965). Баку: Элм, 1971, 203 с.
2. Рзаева М.З. Партия и творческие поиски кинопублицистов Азербайджана (1960-1975). Баку: Элм, 1986, 188 с.
3. Rzayeva M.Z. Azərbaycan sənədli kinosunun bəzi məsələləri /Xülasə/. "Azərb. SSR EA-nın xəbərləri. Ədəbiyyat dil və incəsənət seriyası; 1974; №3, s.104.
4. Azərbaycan kinosu. Filmlərin izahlı kataloqu. 1898-2002. I və II cildlər. Xronikal-sənədli, elmi-kütləvi, sifariş və tədris filmlərinin izahlı kataloqu. Bakı, 2003, 374 s.
5. Kazımzadə A.Ə. Bizim «Azərbaycanfilm» (1923-2003). C.Cabbarlı adına «Azərbaycanfilm» kinostudiyasının 80 illiyinə həsr olunur. Bakı: Mütərcim, 2004, 476 c.
6. Kazımzadə A.Ə. Xronikal-sənədli, elmi-kütləvi, sifariş və tədris filmlərinin izahlı kataloqu. II cild, Bakı: Nağıl evi, 2003, 373 s.
7. Махмудова Гёйчек, искусствовед. Документальное кино Азербайджана // http: // www. caucasus documentary. ru / ru / region / azerbaijan / memo. php? PHPSESSID = 7820ef82b34026baabcad742e1e743a1.
8. Собрание партактива республики // Газ. "Бакинский рабочий", 1973, 20 апреля.

## ИЗ ИСТОРИИ ДОКУМЕНТАЛЬНОГО КИНО В АЗЕРБАЙДЖАНЕ В ПОСЛЕВОЕННЫЕ ГОДЫ И В ПЕРИОД МИРНОГО СТРОИТЕЛЬСТВА

**И.Б.МАГЕРРАМОВ**

**РЕЗЮМЕ**

В статье говорится о деятельности Бакинской киностудии в послевоенные годы и в период мирного строительства в области снятия документальных и хроникальных лент в Баку и регионах азербайджанскими операторами и режиссерами сцен деятельности героев труда. Советская власть и партийное руководство, главным образом, использовало снятые ленты в пропагандистских целях.

**Ключевые слова:** Бакинская киностудия, документальный фильм, документальное кино, хроникальный фильм, киножурнал, кинопублицистика, киноновелла, кинохроника, документально-хроникальная лента и т.д.

## DOCUMENTARY FILM HISTORY IN AZERBAIJAN IN THE POST-WAR YEARS AND DURING THE CONSTRUCTION OF PEACE

**I.B.MAHARRAMOV**

**SUMMARY**

The article refers to the activities of Baku film studio after the II World War and during peace-building in the field of documentaries and newsreels lifting belts in Baku and in the regions of Azerbaijan, made by Azerbaijani operators and directors about the scenes of the heroes of labor. The Soviet government and party leadership mainly used the taken tapes for propaganda purposes.

**Keywords:** Baku cinema studio, documentary cinema, documentary films, newsreel, cinema, public, film, short story, documentary chronicle tapes etc.